# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 03 may tarixli 301-06/S nömrəli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 03 may tarixli 301-06/S nömrəli Sərəncamının 3.2-ci bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

1.1. “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” və “Sərnişinlərin icbari fərdi qəza sığortası”nın aparılması haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 fevral tarixli 14 nömrəli Qərarı;

1.2. “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 mart tarixli 27 nömrəli Qərarı;

1.3. “Aqrar sığorta predmetinin Tərkibi”nə daxil olan kənd təsərrüfatı bitkiləri, bitkiçilik məhsulları, heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlara görə hesablanmış sığorta məbləğinin və sığorta haqqının təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 27 fevral tarixli 41 nömrəli Qərarı;

1.4. “Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat hadisələri nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 sentyabr tarixli 187 nömrəli Qərarı.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 1 ” aprel 2024-cü il

№ 34